## 1 noyabr Milli Məclisə seçkilər günüdür

# Təbliğat kampaniyası davam edir

(Əvvəli 2-ci səhifədə).

Çox təəssüf ki, bizim bu inkişafımızı gözü götürməyənlər, Azərbaycanı həmişə öz təsir dairəsində saxlamaq istəyənlər var. Onlar bizim ağrılı problemlərimiz olan Qarabağ probleminin həll olunmasına imkan vermirlər. Bizə hər cür təzyiq göstərməyə çalışırlar. Ancaq müdrik xalqımız həmişə onların layiqli cavabını verir və verəcəkdir.

Sizin hamınızı bu seçkilərdə fəal iştiraka çağırıram.

Çıxış edənlərin yekdil fikri belə oldu: növbəti seçkilərdə də onları bu vaxta qədər Milli Məclisdə layiqincə təmsil etmiş səmimi insan Fəttah Heydərova səs verəcəklər.

* * *

Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Fəttah Heydərovun mədəniyyət sahəsində çalışan işçilərlə təbliğat görüşü Qəbələ şəhərində seçki təbliğatının aparılması üçün nəzərdə tutulan məkanda, Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində keçirildi. Təbliğat görüşünü giriş sözü ilə namizədin səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açdı. O, bildirdi ki, artıq noyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərin təbliğat kampaniyası başa çatmaq üzrədir. Bu vaxta qədər seçicilərlə keçirilən təbliğat görüşlərində seçicilər çox böyük fəallıq göstəriblər. Bu təsadüfi deyil 116 saylı Qəbələ Seçki Dairəsindən deputatlığa namizəd Fəttah Heydərov 20 ildir ki, bizi Milli Məclisdə layiqincə təmsil edir. Rayonun ictimai işlərində fəal iştirak etməklə yanaşı sosial-iqtisadi problemlərinin həllində hər cür kömək göstərir. Rayondakı bir çox möhtəşəm layihələrin təşəbbüsçüsü Fəttah Heydərovdur.



Səlahiyyətli nümayəndə sözü namizədin vəkili Telman Abduxalıqova verdi. Telman Abduxalıqov Fəttah Heydərovun keçdiyi həyat yolu haqqında qısaca məlumat verdikdən sonra bildirdi ki, təmsil etdiyi namizəd Milli Məclisin deputatı olduğu 20 il ərzində parlamentin işində çox böyük fəallıq göstərib. Qanunvericilik bazasının hazırlanması zamanı həmişə insanların rifah halının daha da yaxşılaşdırılmasını nəzərdə tutan layihələri dəstəkləyib, bu istiqamətdə öz təkliflərini verib. Çalışıb ki, bu layihələr gerçəkləşsin və çox vaxt buna nail olub. Telman Abduxalıqov Fəttah Heydərovun təşəbbüsü və yaxından köməyi ilə rayonda sosial-iqtisadi sahədə əldə olunan nailiyyətləri diqqətə çatdırdı. Qeyd etdi ki, vaxtilə Azərbaycanda belə az tanınan Qəbələnin bu gün beynəlxalq aləmdə tanınmasında Fəttah Heydərovun böyük rolu var. Çıxış edən seçicilər Fəttah Heydərov haqqında öz ürək sözlərini dedilər. Bildirdilər ki, bu gün Qəbələdə mədəniyyət sahəsində əldə olunan nailiyyətlərə görə Fəttah Heydərova minnətdardılar. Fəttah Heydərovun təşəbbüsü ilə Qəbələ Rayon Mədəniyyət evinin köhnəlmiş, soyuq, işləmək üçün əlverişsiz olan binasının yerində çox möhtəşəm hər cür şəraiti olan Qəbələ Mədəniyyət Mərkəzi ucaldılmışdır.

Seçicilər qarşısında çıxış edən Milli Məclisin deputatlığına namizəd Fəttah Heydərov bildirdi ki, onlarla görüşdən çox məmnundur. Bütün sahələrdə çalışanlar kimi mədəniyyət sahəsində də çalışanlar onun üçün doğmadır. Çünki, o özü də uzun müddət bu sahədə çalışmış, sıravi mədəniyyət işçisindən nazir vəzifəsinədək yüksəlmişdir. Fəttah Heydərov qeyd etdi ki, ölkəmizdə əldə olunan böyük inkişafın əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün bu inkişaf tempi ulu öndərin layiqli varisi ölkə Prezidenti möhtərəm İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan regionun ən inkişaf etmiş, sabit sakit bir ölkəsidir. Bu Prezident İlham Əliyevin həyata keçirdiyi düzgün sınanmış, müstəqil siyasətin, eyni zamanda xalqın öz Prezidentinə göstərmiş olduğu etimadın nəticəsidir.

Qəbələ rayonunda həyata keçirilmiş nəhəng sosial-iqtisadi layihələrə toxunan deputatlığa namizəd bildirdi ki, Qəbələ rayonu da möhtərəm Prezidentimizin qayğısı sayəsində bu günkü inkişaf mərhələsinə çatmışdır. Burada biz bir çox layihələrin təşəbbüsçüsü olmuşuq, möhtərəm Prezidentimiz isə həmin layihələrin dəstəkləmiş, həyata keçirilməsinə nəzarət etmiş, əksəriyyətinin təməlini qoymuş, açılış lentini kəsmişdir. Nəticədə Qəbələ bu gün çox möhtəşəm beynəlxalq tədbirlərin keçirildiyi gözəl, müasir məkana çevrilmişdir. Deputatlığa namizəd Fəttah Heydərov burada iştirak edən seçicilərin arzusunu



nəzərə alaraq Qəbələ musiqi məktəbinə yeni binanın tikilməsinə yardımçı olacağını, gələcəkdə musiqi məktəbinin bazasında orta ixtisas musiqi məktəbinin açılmasına çalışacağını bildirdi.

Çıxış edənlər təmsil etdikləri bütün seçicilər adından bildirdilər ki, noyabrın 1-də onları, Qəbələni bu vaxta qədər ali qanunverici orqanda layiqincə təmsil etmiş Fəttah Heydərova səs verəcəklər.

* * *

Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Fəttah Heydərovun növbəti görüşü Qəbələ gənclərinin nümayəndələri ilə keçirildi. Görüşü namizədin vəkili, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon təşkilatının sədri Abil Ağasəfov açdı. Namizədin vəkili Arifə Bayramova Fəttah Heydərovun keçdiyi zəngin həyat yolu barədə gənclərə ətraflı məlumat verdi. Bildirdi ki, Fəttah Heydərov artıq 20 ildir ki, Qəbələ seçicilərini Milli Məclisdə layiqincə təmsil edir. 20 il öncə burada iştirak edən gənclərin bəziləri həyatda yox idi, bəziləri də uşaqlıq dövrünü yaşayırdı. Ona görə də o vaxtlar Qəbələnin, bütövlükdə Azərbaycanın hansı vəziyyətdə olduğunun bir başa şahidi deyillər, 20 il öncə Azərbaycanda iqtisadi vəziyyət çox çətin idi. Bakı şəhərində, bölgələrdə o cümlədən Qəbələdə bu yaraşıqlı binalar küçələr yox idi, işsizlik baş alıb gedirdi: İşləyənlər də ancaq çörək puluna çatmayacaq qədər əmək haqqı alırdılar. Bu gün isə sizin qarşınızda güclü Azərbaycan, gözəl Qəbələ ucalır. Bütün bunların yaranmasının əsasını, qoyan ulu öndərimiz Heydər Əliyev olub. Fəttah Heydərov da ulu öndərin yaxın silahdaşı kimi bu işlərin ərsəyə gəlməsində fəal iştirak edib. Ulu öndərin inkişafının əsasını qoyduğu Azərbaycan möhtərəm Prezidentimiz İlham Əliyev uğurla gözl, daha firavan gələcəyə aparır. Bizim həmişə Fəttah Heydərov kimi müdrik ağsaqqalara ehtiyacımız var. Ona görə bizim gəncləri Fəttah Heydərova səs verməyə çağırıram.

Çıxış edən gənclərdən Gülnar Eyvazlı, Natiq Ağayev, Səbinə Cahangirli və başqaları bildirdilər ki, gənc olsalar da Fəttah Heydərovun rayonun inkişafındakı rolundan xəbərdardılar. Fəttah Heydərov gənclərin də səmimi dostu və sirdaşıdır. Rayonda gənclər üçün yaradılan saysız-hesabsız idman, əyləncə, istirahət obyektlərinin gerçəklənməsində Fəttah Heydərovun rolu böyükdür.

Depututlığa namizəd Fəttah Heydərov çıxışında qeyd etdi ki, yaşlı nəslin bütün fəaliyyəti gənclərin xoşbəxt gələcəyini təmin etmək üzərində qurulmuşdur. Hələ 21 il əvvəl ulu öndər Ermənistanla atəşkəs müqaviləsinin bağlanmasına nail olarkən gələcəyimiz olan gənclərin mənafeyini əsas götürmüşdü.



Çünki Ermənistanla ədalətsiz müharibədə minlərlə Azərbaycan gəncinin qanı tökülmüşdü. Ulu öndər Heydər Əliyev Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ problemini sülh yolu ilə həll etməyi əsas məqsəd kimi qarşıya qoymuşdur. Bu yolu möhtərəm Prezidentimiz davam etdirir. Bu gün bizim siz gənclərdən ibarət olan güclü ordumuz, müasir silahlarımız var. Müharibə yolu ilə hər an torpaqlarımızı azad edə bilərik. Ancaq biz istəmirik ki, bizim gənclər yenə müharibə meydanlarında həlak olsun. Ona görə biz sülh yolunu davam etdiririk. Əgər bu mümkün olmasa bizim ordumuz işğal altındakı torpaqlapı azad etməyə qadirdir.

Siz gənclər ölkəmizin inkişafında çox fəal iştirak edirsiniz. Gələcəyimiz sizin çiyinlərinizdədir, sizin əllərinizdədir.

Görüşdə gənclərin yekdil fikri ifadə olundu. onlar layiqli namizədləri Fəttah Heydərova səs verəcəklər.

* * *

Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa 116 saylı Qəbələ Seçki Dairəsindən namizədliyi irəli sürülmüş Fəttah Heydərovun vəkillərinin növbəti təbliğat görüşü Yeni Dizaxlı kəndində keçirildi. Görüşdə Dizaxlı və Zirik kənd seçicilərinin nümayəndələri də iştirak edirdi. Təbliğat görüşünü namizədin vəkili Aslan Cəlilov açaraq bildirdi ki, Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçkilərin təbliğat kampaniyası mərhələsi uğurla davam edir. Aslan Cəlilov vəkili olduğu namizədin həyat və fəaliyyəti barədə iştirakçılara qısaca məlumat verdikdən sonra son 10 ildə ölkəmizdə, rayonumuzda sosial-iqtisadi inkişaf sahəsində əldə edilən nailiyyətlər barədə danışdı. Azərbaycan iqtidarının uğurlu iqtisadi siyasəti ölkə iqtisadiyyatına kənardan mənfi təsirlərin minimuma endirilməsi istiqamətində atılmış addımlar sayəsində nüfuzlu beynəlxalq maliyyə iqtisadi təşkilatlar və aparıcı reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın milli inkişaf modeli elə uzaqgörənliklə düşünülmüşdür ki, dövlətin sosialyönümlü siyasəti azad bazar iqtisadiyyatının tələbləri ilə ziddiyət doğurmur. Aslan Cəlilov Prezident İlham Əliyevin hakimiyyətdə olduğu 12 il ərzində ölkəmizdə əldə olunmuş uğurları seçicilərə xatırlatdı.

Namizədin vəkili Qüdrət Səmədov seçicilərin diqqətinə çatdırdı ki, məhz Azərbaycan Prezidentinin apardığı balanslı siyasətin nəticəsidir ki, ölkəmizdə əmin amanlıq, sabitlik hökm sürür. İnkişaf da ancaq ölkədə sabitliyin olduğu şəraitdə mümkündür.

Namizədin vəkili eyni zamanda bildirdi ki, Azərbaycan Parlamenti Fəttah Heydərov kimi təcrübəli, dünyagörmüş insanların sayəsində səmərəli fəaliyyət göstərir.

Fəttah Heydərov təkcə ölkəmizdə deyil, ölkədən kənarda beynəlxalq təşkilatlarda da uğurlu iş aparır. Ölkəmizin haqq sözünün xarici ölkələrdə bəyan edilməsində böyük rolu var.

Qəbələdə həyata keçirilən möhtəşəm layihələrin hamısının təşəbbüskarı Fəttah Heydərovdur. Öz səmimiliyi ilə əhali arasında dərin hörmət qazanmışdır.

Çıxış edənlər Fəttah Heydərovun 20 il ərzində onları Milli Məclisdə layiqincə təmsil etdiklərini bildirdilər. Elə buna görədə təmsil etdikləri kənd seçicilərinin yekdil fikrini çatdırdılar. Onlar bu seçkilərdə də Fəttah Heydərova səs verəcəklər.

**Qüdrət SƏMƏDOV.**

**Fotolar İ. Vəlizadənindir.**